# Yeni Azərbaycan Partiyası növbəti parlament seçkilərində də böyük uğurlar qazanmaq əzmindədir

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ, Balakən, Zaqatala, Qax, Oğuz rayon, Şəki şəhər şöbələri üzvlərinin qarşıdan gələn parlament seçkilərinə hazırlıq işləri ilə əlaqədar toplantısı 18 avqust 2015-ci il tarixdə Qəbələ şəhərində keçirilmişdir. Toplantını giriş sözü ilə Azərbaycan Respublikası Nazirlər Kabineti sədrinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini—icra katibi Əli Əhmədov açmışdır. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərərgahının rayon şöbəsinin gördükləri iş barədə danışmaq üçün söz YAP Zaqatala Rayon Təşkilatının sədri Habil Qurbanova verilmişdir. Sonra YAP Şəki Şəhər Təşkilatının sədri Həsən Həsənov təşkilatın qarşıdan gələn seçkilərlə əlaqədar həyata keçirdiyi tədbirlər barədə məlumat vermişdir.





Çıxışlardan sonra Baş nazirin müavini, YAP sədrinin müavini, icra katibi Əli Əhmədov bildirmişdir ki, bu ilin noyabr ayının 1-də ölkəmizdə Milli Məclisə növbəti seçkilər keçiriləcəkdir. Yeni Azərbaycan Partiyası əvvəlki seçkilərdə olduğu kimi bu seçkilərə də çox ciddi şəkildə hazırlaşır. Yeni Azərbaycan Partiyasının yerli strukturları, partiyanın fəalları hazırlıq işinə geniş cəlb olunub. Artıq bütün rayon və şəhər təşkilatlarında YAP Mərkəzi Seçki Qərargahının şöbələri yaradılıb. Rayon şöbələrinə partiyanın fəalları, seçki təcrübəsi olan YAP üzvləri cəlb olunublar. Yeni Azərbaycan Partiyasının seçkilərdə uğur qazanması üçün obyektiv səbəblər mövcuddur. Birinci növbədə qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə yüksək siyasi abı-hava yaranmış, iqtisadiyyatın dinamik inkişafı, əhalinin rifahının yüksəlməsi, bölgələrin sosial-iqtisadi inkişafı təmin olunmuş, Azərbaycanın beynəlxalq müstəvidə imici artmış, əmin-amanlıq, sabitlik bərqərar olmuşdur. Ötən seçkilərdən keçən dövrlə bu günümüzü müqayisə etsək ölkəmizdə çox nəhəng inkişaf baş verib, insanların həyatı müsbət mənada əhəmiyyətli dərəcədə dəyişilib, respublikamız beynəlxalq aləmdə çox böyük nüfuz qazanıb, etibarlı tərəfdaşa çevrilib. Sözsüz ki, bu sadalanan müsbət dəyişikliklər, inkişaf növbəti seçkilərdə də Yeni Azərbaycan Partiyasının qələbəsinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcək.

Hazırda sürətli inkişaf siyasətinin həyata keçirildiyi Azərbaycanda sabitlik, əmin-amanlıq insanların rahat, rifah halında yaşamasını təmin edən amillərdəndir. Bu şərait haqlı olaraq insanlarda belə bir inam yaradıb ki, qarşıdakı illərdə də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük zirvələr fəth edəcək.

Natiq qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyev ötən illər ərzində ölkə iqtisadiyyatının əhəmiyyətli dərəcədə inkişafına nail olub. İndi Azərbaycan dünyanın iqtisadi cəhətdən ən inkişaf edən ölkələri sırasında inamla irəliləyir. Bu amillər xalqımızın Prezident İlham Əliyevə inamını daha da gücləndirib.

Cənab Əli Əhmədov qeyd etdi ki, Yeni Azərbaycan Partiyası növbəti parlament seçkilərinə qazanılmış bu nailiyyətlərlə gedir. Xalq hakimiyyətdə olan partiyaya onun gördüyü işə uyğun qiymət verir. Hakim partiya olan Yeni Azərbaycan Partiyasının onun lideri İlham Əliyevin rəhbərliyilə həyata keçirdiyi tədbirlər göz qabağındadır. Belə olduqda xalq onların rifahını yüksəltmək üçün yorulmadan çalışan ölkə Prezidenti cənab İlham Əliyevin sədri olduğu partiyanın—Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklər. Çünki hər bir vətəndaş aydın şəkildə hiss edir ki, Yeni Azərbaycan Partiyasının hakimiyyətdə olması, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu inkişafının daha sürətlə davam etməsinə zəmin yaradacaqdır.

Sözsüz ki, seçkilərdə qələbə qazanılmasının digər bir şərti də səmərəli seçki kampaniyasının aparılmasıdır. Yeni Azərbaycan Partiyası seçki kampaniyasının yüksək səviyyədə təşkili üçün lazım gələn bütün tədbirləri mövcud qanunlara üyğun şəkildə ardıcıl olaraq həyata keçirir. Yeni Azərbaycan Partiyasının güclü insan potensialı var və bu seçkilərdə uğur qazanmaq üçün böyük şans verir.

Qeyd olundu ki, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərərgahının yerli şöbələrinə seçkilərdə böyük təcrübəsi olan insanlar, partiya fəalları cəlb edilib. Və buna görədə qarşıdan gələn parlament seçkilərində onlar öz üzərlərinə düşən vəzifəni uğurla yerinə yetirəcəklər. Və bu uğurlu nəticənin təmin olunmasında mühüm rol oynayacaq. Cənab Əli Əhmədov Mərkəzi Seçki Qərərgahnın yerli şöbələrinin üzvlərinə lazımi tövsiyyələrini verdi.

Toplantıda iştirak edən respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov çıxış edərək bildirdi ki, cənab Əli Əhmədov çox əhatəli çıxış etdiyinə görə ona təşəkkür edir. Cənab Fəttah Heydərov qeyd etdi ki, biz 20 ildir ki, bu fəallarla birlikdə seçki kampaniyalarını uğurla aparırıq və başa vururuq, növbəti kompaniyada da böyük uğur əldə edəcəyimizə əminəm. Qələbəmizi şərtləndirən əsas amil cənab Əli Əhmədovun da qeyd etdiyi kimi ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu inamla və qətiyyətlə həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunmuş sabitlik, əmin-amanlıq və misli görünməmiş inkişafdır, İnsanların rifah halının durmadan yüksəlməsidir. Cənab Fəttah Heydərov növbəti parlament seçkilərində də Yeni Azərbaycan Partiyasının böyük uğurlar qazanacağıına əmin olduğunu bildirdi.

**Qüdrət CƏMALƏDDİNOĞLU.**
**Fotolar İlkin Vəlizadənindir.**